Ədalət.- 2017.- 4 fevral.- S. 12.



Elnur Uğur Abdiyev

## Azərbaycan Bayrağı

Səni qandan yoğurdu,
Uğrunda can verənlər.
Yurdu torpaq edən yox,
Torpağı yurd edənlər.

Namusumun hicabı,
Əqidəmin sancağı,
Tariximin yaşıdı,
Azərbaycan Bayrağı!

Dalğalan başım üstə,
Azadlığım şirindir.
Hara ki kölgən düşür,
Müqəddəs and yerimdir.

Vətən üfüqlərində,
Ləpələnsin bu üç rəng.
Səmandan nur ələsin,
Ay-Ulduz, öpüşərək.

Türk elləri salamlar,
Üzündə xoş növrağı.
Türklüyümün sübutu,
Azərbaycan Bayrağı!

## Sonra da...

Çıxasan ümidin vəd edən yola,
Sağdan addımlayıb, gedəsən sola.
Kaş tikə biləsən sevgidən qala,
Sonra da... Sonrası nə olur, olsun.
Götürə ürəkdən qucağa səni,
Apara yaxının uzağa səni.
Lap çəkə bir tinə, bucağa səni,
Sonra da... Sonrası nə olur, olsun.

Dama gözlərində adın sevinclə,
Baxa yandan doğman, yadın sevinclə.
Oxşaya adını qadın sevinclə,
Sonra da... Sonrası nə olur, olsun.

Bürüyüb içini eşq adlı dona,
Baş alıb gedəsən özündən ona.
Çatasan sonrası olmayan sona,
Sonra da... Sonrası nə olur, olsun.

## Küçədə

Daralıb səbrim daralıb,
Səsim azıb gen küçədə.
Səsimə səs verən nə çox,
Kim var biz gəzən küçədə?

Mən elə bilirdim təkik,
Neçəyə vuruldu təklik?
İkimiz iki tən tənlik,
Məchuluq həmən küçədə.

Bu sən, bu mən, bu küçə,
Vurulaq, bölünək üçə.
Cavabı alınar neçə,
Bərabər ölən küçədə?..

## Bu yollar

Bu yolların dəvə beli,
Hürgüc-hürgüc, təpə-təpə.
Gözlərimdə işıq seli,
Yolu yellər ləpə-ləpə.

İlki haça, sonu haça,
Tən ortada ayaq açan!
Bilmirsən haracan, haçan,
Bəxt nə tökə, vaxt nə səpə.

Gedirsən, ayağında yol,
Uzanacaq, dözümlü ol.
Hələlik de, demə sağ ol,
Bəlkə, döndün bu tərəfə.

## Əynimdə

Bir işin nəticəsiyəm,
Səbəb bu candı əynimdə.
Özü ruhdur, üzü dəri,
Canım bir dondu əynimdə.

Bir bədəni tutdum kirə,
Kirayə haqqın ruh verə.
Gedirəm getdiyim yerə,
İlahi andı əynimdə.

İşığa büküb içimi,
Yığıram çölə köçümü.
Tanrım, söz adlı elçimi,
Məndə mən yondu əynimdə?

Göz yaşım yoluma yağdı,
Boşuma, doluma yağdı.
Sağıma, soluma yağdı,
Ruhum islandı əynimdə.

## Çırpına

Nə qədər ki haqdan gəlir nəfəsim,
Dəli sevgim, bu nəfəslə çırpın a!
Haqdan keçsəm, sınsın ömür qəfəsim,
Sınmasa da, siz yer-yerdən çırpın a!

Haqq eşqiylə canda can sağ, tən diri,
Onsuz heçəm tən ölüyəm, tən diri.
Eşqim qalar zaman adlı təndiri,
Od vurmaram, həyat, hər çır-çırpına.

Qəbrim üstə neçə başdan başdaşı,
Eşqlə yonun olsun mənə başdaşı.
Qoy daşıya bilsin, bədən, başdaşı,
Bu daş altda qoymayın yer çırpına.

## Kökə

Ağlım hisdi, duyğum kütdü,
Söykənməzsə, sözüm kökə.
Küt anlasa niyə kütdü,
Ruhu düşməz kökdən-kökə.

Məndə mən yaşadan təndir,
Ruhum canda canla təndir.
Zaman alov saçan təndir,
Mənsə yapılmış bir kökə.

İçinə sığdığım kürə,
Hər sözdə doğduğum, kürə.
Ey alov yağdığım kürə,
Budağam bağlıyam kökə...